Şagirdlər, valideynlər və onların fənn müəllimləri arasında maarifləndirmə işinin mütəmadi aparılması ilə əlaqədar müvafiq rayon Təhsil şöbələrinin müəyyən etdiyi metodistlər təlimatlandırılıb və onlara zəruri tapşırıqlar verilib.

**Ümumi orta və tam orta təhsil səviyyələri üzrə yoxlama və buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada aparılması işinin təkmilləşdirilməsi**

**və daha səmərəli təşkili barədə**
**Azərbaycan Respublikası təhsil nazirinin əmri**

Ümumi orta və tam orta təhsil səviyyələri üzrə yoxlama və buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada aparılması işinin təkmilləşdirilməsi və daha səmərəli təşkili məqsədilə

**ƏMR EDİRƏM:**

2010/11-ci dərs ilində Respublikanın bütün ümumtəhsil məktəblərində (Naxçıvan MR istisna olmaqla) və peşə liseylərində, o cümlədən, ötən dərs illərində buraxılış imtahanlarından qeyri-kafi qiymət alan, müəyyən səbəblərdən ümumi orta və tam orta təhsil səviyyələrini bitirməyən və eksternat qaydasında imtahan vermək üçün müraciət edən şəxslər də əhatə olunmaqla, ümumi orta və tam orta təhsil səviyyələri üzrə yoxlama və buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirilməsi işinin təşkili məqsədilə yerlərdə təlimati iş aparmaq üçün adları aşağıda qeyd olunanlar göstərilən şəhər və rayonlara 19.10.2010-cu il tarixdən ezam olunsunlar:

| | | | |
|---|---|---|---|
| 1. | Nəbi Mahmudov | Təhsil Nazirliyi Monitorinq və qiymətləndirmə şöbəsinin baş məsləhətçisi | 19-23 oktyabr - Ağsu, Şamaxı, Qobustan |
| 2. | Nadir Məmmədov | Təhsil Nazirliyi Monitorinq və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi | 19-23 oktyabr - Gəncə, Şəmkir |
| 3. | Ceyhun Məmmədov | Təhsil Nazirliyi Monitorinq və qiymətləndirmə | |

| | | | |
|---|---|---|---|
| | | şöbəsinin aparıcı məsləhətçisi | 19-23 oktyabr Qazax, Ağstafa, Tovuz |
| 4. | Azər İsmayılov | Təhsil Nazirliyi Ümumi şöbəsinin kompüter üzrə mütəxəssisi | 19-23 oktyabr - <br><br> Göyçay, Oğuz, Qəbələ, İsmayıllı |
| 5. | Azər Nəbiyev | Təhsil Nazirliyi Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsinin böyük məsləhətçisi | 19-23 oktyabr - <br><br> Hacıqabul, Şirvan, Sabirabad, Saatlı |
| 6. | Xəyyam Fərəcov | Təhsil Nazirliyi Strateji təhili, planlaşdırma və kadrların idarəolunması şöbəsinin baş məsləhətçisi | 19-23 oktyabr - <br><br> Balakən, Zaqatala, Qax, Şəki |
| 7. | Araz Şamilov | Bakı şəhəri üzrə 313 nömrəli məktəbin müəllimi | 19-23 oktyabr - <br><br> Astara, Lənkəran |
| 8. | Alı Məmmədov | Bakı şəhəri üzrə Təhsil İdarəsi Metodik Mərkəzinin Sabunçu-Xəzər bölməsinin müdiri | 19-26 oktyabr <br><br> Ağdam, Füzuli, Xocavənd, İmişli, Cəbrayıl, Laçın, Ağcabədi, Beyləqan |
| 9. | Novruz Dəmirov | Təhsil Nazirliyi S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyasının direktoru | 19-26 oktyabr - <br><br> Siyəzən, Şabran, Xızı, Quba, Qusar, Xaçmaz |
| 10. | Mirhəsən Cavadov | Təhsil Nazirliyi Kimya-biologiya təmayüllü liseyin direktoru | 19-23 oktyabr - <br><br> Ucar, Zərdab, Kür-dəmir |
| 11. | Rəşad Səmədov | Təhsil Nazirliyi Məktəbdaxili qiymətləndirmə üzrə milli | 19-23 oktyabr - |

| | | | |
|---|---|---|---|
| | | məsləhətçi | Lerik, Yardımlı, Masallı, Salyan |
| 12. | Yaşar Zeynalov | Təhsil Nazirliyi PISA-nın məlumat üzrə meneceri | 19-26 oktyabr - Göygöl, Samux, Naftalan,Daşkəsən |
| 13. | Piralı Əliyev | ARTPİ-nin şöbə müdiri | 19-23 oktyabr - Mingəçevir,Ağdaş, Gədəbəy |

Ezamiyyə xərcləri əsas iş yerləri hesabına ödənilsin.

**ƏSAS:** "Ümumtəhsil məktəblərində, peşə liseylərində buraxılış imtahanları və şagirdlərin sinifdən-sinfə keçirilməsi haqqında Qaydalar"ın 24-cü bəndi

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***18 oktyabr 2010-cu il***